# REPRESSİYA QURBANI OLMUŞ HİND-ABANİ MUKERCİ

Mən adətən, bir insanın yaşadığı yerdən heç inanılmayacaq dərəcədə xarici bir ölkəyə getdiyini və yaxud da, adamın inanmağı gəlməyəcəyi dərəcədə başqa bir yerdə doğulan və həmin ölkədən olmayan insanları araşdırıb tapanda araşdırma nəticəsində öyrəndiklərimə heç inana bilmirəm. Belə insanların taleyi mənə çox maraqlı gəlir.

"Sosialist Hindistan sosialisti kimi olmalıdır" məqaləmdə elə bilməyin ki, mən sosialistəm. Mən sadəcə, sosializmi təhlil edirdim. Bu məqalədə bildiyiniz kimi, Hindistan sosializmi deyə bir sosializmin olduğunu irəli sürmüşəm . Bu günkü məqaləmin mövzusu kiçik bir kənddə sosializmin fərqinə varan, fəaliyyətinə Bakıda başlayan və Moskvanın mərkəzində davam edən, repressiya qurbanı olmuş yeganə hind millətinin nümayəndəsi Abani Mukercidir.

Hindistanda Abaninath Mukerci, post-sovet məkanında isə Abaninath Trayloviç Mukerci 3 iyun 1891-ci ildə indiki Hindistanın Madya Pradeş əyalətinin ən ucqar kəndlərindən biri olan Cubbulpur kəndində anadan olmuşdu. Abaninin atası Traylokanath Mukerci idi, lakin, Post-Sovet məkanında onu Trayl olaraq tanıyırdılar. Lakin Azərbaycanda bu insanı tanıyan var, ya yox bunu bilmirəm.

Abani çox kasıb olduğundan məktəbdən tez çıxarıldı. Çıxarıldıqdan sonra Əhmədabad şəhərinə getdi və 1910-cu ildə indiki Banqladeşdə yerləşən Lakşmi Pambıq Dəyirmanlarında pambıqçı dəstəsinə başçılıq etdi. 1912-ci ildə başqa ölkələrə getmək və burada pambıqçı olaraq işləmək istədi. Həmin il ingilislər tərəfindən Yaponiyaya və Sosializmin Vətəni Almaniyaya göndərildi. Və təxmin edin... Bəli, düz təxmin etdiniz.

Abani Almaniya gənclərinin əhatəsində çox qaldı və almanlar ona sosializmi öyrətdilər. O da fikirləşdi:"Madam ki, ingilislərin təcavüzünü biz kəndlilərə sosializmi unutduracaq, onda niyə sosialist olmayım?"

O, 1912-ci ilin dekabr ayında Kəlküttəyə qayıtdı və pambıqçı Endrü Yuli Millin başçılığı altında işlədi.

Mövcud vəziyyətə daha dözə bilmədi və1914-cü ildə Raşbehari Bose ilə birlikdə "İnqilab Hərəkatı"na qatıldı. Təbii ki, haqqında yazdığım Çandrasekar Azad və Baqat Sinqxlə də çalışdı və dost oldu. 1915-ci ildə Raşbehari Bosenin planı ilə Yaponiyaya inqilabçılar üçün silah oğurlamağa getdi. Silahların yarısından çoxunu oğurladı, lakin Sinqapurda ingilislər tərəfindən həbs olundu və Fort Kenninq həbsxanasında saxlanıldı. Oğurlanan silahların hamısı ingilislərə təhvil verildi.

1917-ci ilə qədər artıq Abaninin ümidi kəsilmişdi, sosializm ingilislərin təcavüzünü unutdura bilməyəcəkdi. Artıq bu həbsxananın onun dönük bəxti olduğunu anlamışdı... ki, Böyük Oktyabr Sosialist İnqilabı baş verdi.O, böyük bir planla həbsxanadan qaçdı və Hollandiyanın təkribindəki Hind Adalarında düz 2 il qaldı. Burada İndoneziya və Niderland sosialistləri ilə sıx əlaqə saxladı.

1920-ci ildə«Kommunist İnternasional»ına qatılmaq üçün Rusiyaya getdi. Bu yolda olarkən Manabendra Nath Baççarya ilə əlaqə saxladı.

19 iyul - 7 avqust 1920-ci il arasında«Kommunist İnternasional»ı üçün Moskvada qaldı. Burada yeganə hindli olan yalnız o idi. Baççarya həmin vaxt Meksikaya getmişdi. «İnternasional»da Lenin onu belə təqdim etdi:

-Burada çoxunuz elə bilirdiniz ki, sadəcə ruslar olacaq. Lakin, bu belə deyil. Sosialist Dövləti sadəcə ruslardan ibarət olmamalıdır. Belə ki, sosializmi yaradan Marks və Engels də almandır. Ona görə də, biz dünyanın hər yerində sosializmi yaymalı və dünyanın ən ucqar nöqtəsində yaşayan sosialistlərlə belə əlaqə saxlamalıyıq, hətta amerikan və ingilis sosialistləri ilə də. Çünki, onlar imperializmdən doğru yola gəlmiş insanlardır. Burada bir alovlu sosialist var. O, bu internasionala gəlmək üçün Sinqapur həbsxanasından qaçıb, Niderland Hind Adalarında 2 il gözləmiş və sonra İnternasionala gəlmişdir. Bu insan bir hindlidir. Sol sosialist Abaninath Mukerci.

Abaniyə çox diqqət yetirilirdi. Çünki, o, hind idi və eyni zamanda Leninin davamçısı olan sosialist idi. O vaxt Leninin belə hindlərdən xəbəri yox idi. Lakin, Çandrasekar azad Lenindən də cəsur idi və düşüncəli idi.



Abani Mukerci, 1925



Abani Mukerci, 1935

Sol sosialist Abani Petroqradda bir neçə gün qaldı. Leninin katibəsi Roza Fitinqova ilə əlaqə saxladı. Sonra bu əlaqə onlar arasında daha da genişləndi və sonunda onlar evlənmək qərarına gəldilər . Onlar ailə həyatı qurduqdan sonra mehriban yaşadılar, bu evlilikdən Qora və Maya adlı övladları doğuldu. Roza Fitinqova həm də Mukerci soyadını qəbul etdi.

Qora Mukerci "Vətən xaininin oğlu" olsa da, Stalinqradın müdafiəsində iştirak etdi və qəhrəmancasına həlak oldu.

Abani sosialistlərlə əlaqəsi barədə bir elanı da oxudu. 1920-ci ilin sentyabrı Bakıda «Şərq xalqları qurultayı» keçiriləcək və həmin qurultaya dünyanın hər tərəfindən insanlar gələcək. Bu Abani üçün çox yaxşı bir fürsət idi. Azərbaycanın zənginliyi barədə az eşidən Abani Azərbaycana getməyi çox istəyirdi. Ona görə də, «Şərq xalqlarıqurultayı»ndaiştirakçılar sırasında onun da adı yazıldığını bildikdə çox sevindi.

Abani Bakı sakinləri tərəfindən çox yaxşı qarşılandı. İnsanlar əzizləri kimi ona hörmətlə yanaşırdılar. Çünki, o, hind idi. Azərbaycanlılar ona maraqlı gəlir, o da azərbaycanlılara maraqlı gəlirdi. Abaninin yanında Nazir Siddiqi və Munna Roy da var idi. Onlar Bakı sosialistləri tərəfindən daha çox tanındılar.

Qurultay 1 sentyabrda başladı və 7 sentyabrda bitdi.

Qurultay zamanı Abani çox gözəl bir çıxış etdi və o, nitqinə belə başladı;

-Bütün Şərq yoldaşlarını və«Küləklər şəhəri»nin alovlu yoldaşlarını salamlayıram! Mən Abani Mukerci, qurultaya Hindistandan gəlmişəm. Qulağa qəribə gəlir elə deyilmi?, Hindistandan gəlmişəm. Bu qəribəliyi mən çox yerdə sezdim. «İnternasional»da olarkən mənəçox diqqətlə baxdılar. Çünki, hind idim. Almaniyada marksizmlə tanış olarkən də mənə qəribə baxdılar. Çünki, hind idim. Nəyə görə, mənim kimi insanlara qəribə baxılmalıdır? Yoldaş- yoldaşdır. Sosializmin dünyada yayılması üçün bu ayrıseçkilik dayandırılmalıdır.

Bilirsiniz ki, Hindistan İngiltərənin zülmü altındadır. Buradakı ingilislər də bunu dərk edirlər, çünki onlar da bu zülmdən qaçıblar. Bütün Hindistan halhazırda qan ağlayır. Sizin bilmədiyiniz qəhrəmanlar Çandrasekar Azad və Baqat Sinqx öldürülüblər. Daha doğrusu, şəhid olublar. Çünki İngiltərədə heç bir ideologiyanı bəyənmirlər. İngilislərin, daha doğrusu İngiltərənin ideologiyasında da olsan, yenə də vəziyyət dəyişmir. Çünki, mən hindəm, biz hindik. Bu ayrıseçkilik onlarda da var və digər millətlərə yuxarından aşağı baxırlar. Rusiyaya baxıram, ora da bizim kimidir. Səhv başa düşməyin, bizdə də çoxlu xalq, dili başqa olan çoxlu millət , tayfa var, elə Rusiyada da belədir.Ümid edirəm ki, sosializmi «pis yoldaşlar»ın əlinə keçirməyəcəyik. Əgər sosializm «pis yoldaşlar»ın əlinə keçsə, onda sosializm çıxış yolu ola bilməz. İmperialist İngiltərə sosialist dövlətlərdən daha yaxşı olar. Yoldaş Nərimanovun sözlərini dinlədim. O, çox alovlu danışan və sözü ilə əməli bir olan yoldaşdır. Ümid edirəm ki, Nərimanov kimi insanların köməyi ilə bu ayrıseçkilik aradan qaldırılar. Çünki, Nərimanovun bütün ideologiyalara hörməti və tək ideologiyası var. Bizim də tək ideologiyamız və tək sözümüz olmalıdır. İnqilaab Zindabaad! (Yaşasın inqilab!)

Sağ olun, təşəkkür edirəm!

Abani Mukerci 1922-ci ildə Rusiya Kommunist Partiyasının üzvü oldu və SSRİ vətəndaşlığını qəbul etdi. Adını isə belə dəyişdi; **Abani Trayloviç Mukerci.**

SSRİ vətəndaşı olsa da, Hindistana qayıtdı və orada Hindistan Kommunist Partiyasını qurdu.

Həmin il Çandrasekarın sərkərdələri (yoldaşları yox, sərkərdələri) Malabar üsyanını başlatdılar. Abani bunu araşdırmaq üçün Malabara qayıtdı və Malabar üsyanının gedişatı barədə Leninə məktub yazdı.

Məktubda deyilirdi:

"Səhərəyaxın artıq əsgərlər azaldı. Lakin, mübarizə əzmləri itmədi. Onlar son damla qanlarına qədər döyüşdülər. Az sayla ingilisləri qorxuda bildilər. Lakin, onlara qalib gələ bilmədilər. Yoldaş Lenin, bizdə ki bu qədər mübarizə əzmi var, inanırıq ki, biz tez bir zamanda müstəqil olacağıq! Hindistan SSR olacağıq! İnanın, çox tez!"

Rusiyada dövlət quruluşunun dəyişməsindən hələ əvvəl Hindistan sosializmi dəyişdi. Azərbaycanda da olmuş Munna Roy sosialist partiyasını tamam dəyişdirdi. Mukerci ilə Royun fikirləri üst-üstə düşmədiyindən HKP ilə SSRİ Kommunist Partiyasının yolları ayrıldı və Hindistan SSR-in qurulması ehtimalı yoxa çıxdı. Mukercinin "Hindistanfaşistpartiyası" adlandırdığı HKP artıq daha da qüruba doğru gedirdi.

1930-cu illərdə Abani SSRİ Elmlər Akademiyasında Şərq İnsitutunda akademik olaraq çalışırdı.

1936-cı ildə gözlənilmədən Mukerci Moskvadakı evindən Sibirə sürgün edildi. Daha çox əziyyət çəkən Mukerci artıq məcburən keçmiş «ingiltərə»li günlərə dönmək istəyir, sosializmə isə lənət oxuyurdu.

Günahsız olduğu halda 28 oktyabr 1937-ci ildə güllələnəndə isə onun son sözləri belə oldu:

-Mən Bakıda olanda düz demişdim! Mən düz demişdim! Mən sizin Leninizdən də doğruyam! Məni öldürün! Mən Moskvada bu şəraitdə yaşaya bilmərəm! Sosializmə ölüm! Stalinə ölüm!

Və sözləri sona çatmamış güllələr onun sinəsinə tuş gəldi...

Ancaq, 1922-ci ildə İngiltərədəki qəzetlərdən birində yazdığı məqalədə Abaniümidli idi:

"Bu kütləvi liderlərin pis bir fikirləri yoxdur. Burjua qəzetlərindən rus inqilabı ilə bağlı bəzi xəbərləri və bir neçə kommunist fikirləri onlara təsir etdilər. Ancaq onlar bizim yoldaşlarımızdır və biz onları Hindistan Kommunist Partiyasıüçün bir yerə toplamalı və daha sonra birliklərin rəhbərliyini almağa məcbur etməliyik. Bu, partiyanın vəzifəsidir.

Ancaq Hindistanda güclü Kommunist Partiyası yoxdur və birini yaratmaq üçün bir müddət vaxt lazımdır. Beynəlmiləlçilər hələ Hindistanla əlaqə qurmurlar. Digər tərəfdən, göstərdiyim kimi, hindlilər və«mülayimlər» kütlələri ələ keçirmək üçün bütün enerjilərini xərcləyirlər. Onların bir qədər müvəffəq olduqlarını tətil hərəkatının artan cəsarətində görmək olar.

İngilis «İşçi Partiyası» Hindistan işçiləri və həmkarlar ittifaqları ilə də məşğuldur. Bu İngilis liderləri başa düşməlidirlər ki, ingilis işçilərinin sənaye qələbələri yalnız Hindistan kütlələri ilə əməkdaşlıq yolu ilə təmin edilə bilər. Buna görə İngilis işçiləri öz maraqları üçün Hindistanın qızıl yoldaşları ilə ortaq bir mövqedə dayanmalıdırlar. Onları bağlayan iqtisadi maraqların bağlanması çox yaxındır. Tezliklə idarətmə gücünə nəzarət edəcəyini gözləyən«İngilis İşçi Partiya»sı, Hindistanın orta səviyyəli əmək liderini itələyərək Hindistan kütlələrini aldatmağı dayandırmalıdır. Digər tərəfdən, Hindistanlı işçilərə kömək üçün İngiltərədəki təşkilatçı radikal cəmiyyətlər Beynəlxalq yoldaşlarına Hindistanın azad edilməsində əsl hərəkətverici qüvvənin doğma kütlələrin mütəşəkkil gücünə dayandığını göstərməlidirlər.

Leninlə irəli! Stalinlə irəli! İnqilab Zindabad!"

Lakin represiyaya uğradıqdan sonra onların yolu ilə getdiyinə çoooxx təəssüfləndi. Ancaq çox gec idi. Artıq ömür qatarı öz relsi ilə hərəkət etmişdi və bir günahsız qurban da sosializmin öz səmtini dəqiq müəyyənləşdirməyən gülləsinə tuş gəlmişdi. Bu isə avropanın yetişdirdiyi Engels, Marks və Leninə milliyyətcə, dincə və dilcə heç uyğun gəlməyən, lakin öz millətini və xalqını zülmdən qurtarmağa çalışan, adları çəkilənişəxslərin ideologiyasına inanan Abani Mukerci idi. ( sonu məlum)

*Sevindik* Nəsiboğlu

*07.05.2020*